AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU

*Əlyazması hüququnda*

NAİBƏ HÜSEYN qızı VƏLİYEVA

# ƏMƏKDAR RƏSSAM SİRUS MİRZƏZADƏNİN YARADICILIĞI

**İxtisas: 6215.01 – Təsviri sənət**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı - 2018**

Dissertasiya Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ağaəli Müsəllim oğlu İbrahimov**
Xalq rəssamı, professor

**Elmi məsləhətçi:** **Xəzər Atif oğlu Zeynalov**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Rəsmi opponentlər:** **Kübra Muxtar qızı Əliyeva**
sənətşünaslıq üzrə elmlər doktoru,
professor, Əməkdar incəsənət xadimi;

**Əminə Zakir qızı Məlikova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Dissertasiyanın müdafiəsi 2018-cı il 19 sentyabr saat $12^{00}$–da Azərbaycan Milli Elmlər Akademiyası, Memarlıq və İncəsənət İnstitutunun nəzdində yaradılmış FD.01.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı, Hüseyn Cavid prospekti 115, AMEA, Memarlıq və İncəsənət İnstitutunun iclas zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ____________ 2018-ci il tarixində göndərilmişdir.

**FD.01.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru, dosent:** **X.A.Zeynalov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Müasir Azərbaycan təsviri sənətinin inkişafında istedadlı fırça ustası, Əməkdar rəssam, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Sirus Yədulla oğlu Mirzəzadənin özünəməxsus rolu və payı vardır.[1] Onun yaratdığı rəngarəng, milli-dekorativ xarakterli təsvirlər, silsilə əsərlər və monumental tərtibat nümunələri ötən əsrin 70-ci illərindən etibarən bu günədək Azərbaycan incəsənətinin inkişafına, müxtəlif əsərlərlə zənginləşməsinə xidmət edir.[2]

Sirus Mirzəzadənin yaradıcılığı zəngin və çox şaxəlidir. Yaradıcılığının erkən dövründə o, əsasən dekorativ pannolar, mozaika lövhələri yaratmış, eyni zamanda müxtəlif mövzularda dəzgah əsərləri çəkmişdir. Sonralar rəssamın sənət xüsusiyyətləri xeyli təkmilləşmiş, cilalanmış, özünəməxsus dekorativ təsvir forması kəsb etmişdir. Həmin xüsusiyyətlər bu gün də sənətkarın yaradıcılığında əsas bədii üslub kimi özünü büruzə verir. Eyni zamanda S.Mirzəzadə orta əsr miniatürləri və XX əsrin əvvəllərində Avropa avanqardizminin özünəməxsus sintezi olan hissi-assosiativ tablolar da yaradır ki, bunu rəssamın fəaliyyətinin ayrıca bir istiqaməti kimi dəyərləndirmək olar. Bütövlükdə rəssamın yaradıcılığı üçün zərif, işıqlı rənglərdə təzahür edən incə, lirik hisslər, şərti və solğun üz ifadələri, dekorativ formalar, bəzək motivləri, ştrixlər və s. xarakterikdir. Süjet xəttinin ön planda yerləşdirilməsi, sərbəst nəqledici formalar, proporsiya və perspektiv quruluşunun şərtiliyi, neytral xarakterli dekorativ fon rəssamın bədii üslubunun səciyyəvi cəhətləridir. [3] Əlbəttə, bütün bunlar cəlbedici olmaqla həm də müasir sənətin yeni bədii çalarlarla zənginləşməsinə öz töhfəsinin verir.

S.Mirzəzadə müasir mədəni həyatda yaxından iştirak edən, öz bədii-estetik sənət görüşləri olan rəssamdır. Onun yaradıcılığı özünəməxsus olmaqla yanaşı, həm də milli avanqardizmin dekorativ istiqamətinin təkmilləşməsinə xidmət edir. Rəssam yarım əsrdən artıq keçdiyi sənət yolunda bu gün də inamla addımlayır. Onun yaradıcılığı və şəxsiyyəti daim diqqət mərkəzində olmuşdur. Rəssamın 70 illik yubileyi münasibəti ilə

---

[1] Əməkdar rəssam Sirus Mirzəzadənin 70 illik yubileyinə həsr olunan fərdi yaradıcılıq sərgisi / https://news.milli.az/culture/62659.html

[2] Третьякова В. Отражающий собственное Я // http://www.kaspiy.az/news.php?id=20410#.WlD9SK6WbIU

[3] Bakıda "Müasirlikdə miniatür" mövzusunda sərgi keçirilir / http://interfax.az/view/568604/az

2014-cü ilin dekabrında Milli İncəsənət Muzeyində gerçəkləşdirilən fərdi sərgisi bunu bir daha sübut etdi.[1] Bu sərgi S.Mirzəzadənin bir növ sənət hesabatı olmaqla yanaşı, həm də sənət dostlarının və sənətsevərlərin ona olan ehtiramının nişanəsi idi. Rəssam bu gün də böyük həvəslə çalışır, yaratdığı və inkişaf etdirdiyi milli-dekorativ üslubda yeni əsərlər yaradır.

**Mövzunun aktuallığı.** Sirus Mirzəzadə sənətdə öz üslubunu yaratmış rəssamlardandır. Öz fərdi üslubunu yaratmaq və onu təkmilləşdirmək heç də hər rəssama nəsib olmur. Həm də üslub formalaşdırmaqla iş bitmir. Bədii üslubun görünüş xüsusiyyətlərini, rəng estetikasını, ideya-bədii məndəricəsini tamaşaçıya çatdırmağı, ona bir növ “izah etməyi”, əsərə, üsluba maraq oyatmağı bacarmaq lazımdır. Bu mənada S.Mirzəzadəni xoşbəxt rəssam adlandırmaq olar. Çünki onun yaratdıqları, belə demək mümkünsə, itib-batmır, milli dünyagörüşünün, müasir avanqard sənətimizdəki dekorativliyin bir parçasına çevrilir. Şübhəsiz ki, bütün bunlar cəmiyyətdə rəssamın yaradıcılığına müəyyən maraq oyadır. Bu da təbiidir, çünki S.Mirzəzadə milli-dekorativ formaları müasir avanqard sənətlə düzgün əlaqələndirməyi bacaran, bu səbəbdən diqqəti cəlb edən sənətkarlardandır. Əlbəttə, belə bir sənətkarın yaradıcılığını yaxından izləmək, onun çoxsaylı kompozisiyalarını sistemli elmi təhlilə cəlb etmək, belə demək mümkünsə, günün tələbidir. Rəssamın yaradıcılığı müasir incəsənətin özünəməxsus bədii cizgilər kəsb etməsinə, istiqamətlənməinə müəyyən dərəcədə təsir edir. Bu, həm də onun bir pedaqoq kimi fəaliyyətindən irəli gəlir. Təsadüfi deyil ki, bu gün gənclər arasında milli avanqard sənəti dekorativ təsvir müstəvisində canlandıran rəssamlar da var. Bütün bunlarda S.Mirzəzadənin həm sənətkar, həm də pedaqoq kimi fəaliyyətinin təsiri duyulur. Qeyd olunan bu cəhətlər rəssamın yaradıcılığını geniş elmi müstəvidə araşdırmaq üçün kifayət qədər stimul yaradır.

Əlavə etmək lazımdır ki, müasir dövrdə bu və ya digər rəssamın yaradıcılığının öyrənilməsi ənənəsi böyük aktuallıq kəsb edir.[2] Belə ki, rəssam yaradıcılığının işıqlandırılması bir tərəfdən təsviri sənətin müasir inkişaf istiqamətlərinin, digər tərəfdənsə müasir incəsənət tarixinin öyrənilməsinə şərait yaradır. Başqa sözlə, müxtəlif sənətkarların yaradıcılığının təhlil edilməsi öz növbəsində müasir incəsənət tarixinin formalaşmasına şərait yaradır.[3] Bu sırada istedadlı rəssam S.Mirzəzadənin

[1] Əməkdar rəssam Sirus Mirzəzadənin 70 illik yubileyinə həsr olunmuş sərgi açılıb / http://salamnews.org/az/news/read/154529

[2] Gülrəna Mirzə. Rasim Babayev // Bakı, Şərq-Qərb 2013, 104 s.

[3] Gülrəna Mirzə. Elmira Şahtaxtinskaya. Bakı, Şərq-Qərb 2013, 104 s.

də öz rolu vardır. Onun yaradıcılığı müasir təsviri sənətin bir hissəsini təşkil edir və müasir bədii ənənənin öyrənilməsində şübhəsiz ki, müəyyən əhəmiyyət daşıyır. S.Mirzəzadənin bədii dəst-xətti müstəqillik dövrü Azərbaycan təsviri sənətində kifayət qədər geniş yayılmış dekorativliyi əhatə edir. Eyni zamanda rəssam bu dekorativliyə fərqli, özünəməxsus müstəvidə yanaşır. Beləliklə, rəssamın yaradıcılığının işıqlandırılması həm müasir təsviri sənətdəki milli-dekorativ ənənənin, həm də rəssamın özünəməxsus dəst-xəttinin təhlil edilməsi baxımından maraq doğurur.

**Mövzunun işlənmə dərəcəsi.** Söylənildiyi kimi, S.Mirzəzadə yarım əsrdən çoxdur ki, sənətdədir. Bu illər ərzində o, bir çox sənət uğurlarına imza atmış, müxtəlif texnikalarda və mövzularda həm monumental, həm də dəzgah incəsənəti əsərləri yaratmışdır. Əlbəttə, uzun illər ərzində sənətkarın yaradıcılığına, onun bədii üslub xüsusiyyətlərinə diqqət yetirən xeyli sayda tədqiqatçı, jurnalist, sənətşünas olmuşdur. Ötən əsrin 70-80-ci illərindən başlayaraq bu günə qədər dövri mətbuatda, müxtəlif kataloq və toplularda rəssam haqqında yazılar, məqalələr dərc edilmiş, mülahizələr, yanaşmalar, dəyərləndirmələr səsləndirilmişdir. Bunlardan T.Əliyevin "Suzanın nağıl dünyası", [1] Ə.İbrahimovun "Böyük sevgi ilə yaşayan rəssam",[2] T.İbrahimovun "Müasir Azərbaycan rəngkarlığının bəzi təmayülləri Sirus Mirzəzadə yaradıcılığı timsalında", [3] D.Vahabovanın "Bizim yaddaşımızın vitrajları" [4] məqalələrini, N.Muxtarovun "Sovet rəssamları" seriyasında qələmə aldığı "Sirus Mirzəzadə" [5] adlı yazısını, C.Həsənzadənin kataloq üçün yazdığı geniş ön sözü [6] və bir çox başqalarını qeyd etmək olar. Rəssamın yaradıcılığının bu və ya digər xüsusiyyətləri C.Orucovun, [7] F.Hüseynovun, [8] N.Bənnayevanın,[9]

---

[1] Əliyev T. Suzanın nağıl dünyası // "Qobustan" incəsənət toplusu, 1984, № 3.
[2] İbrahimov Ə. Böyük sevgi ilə yaşayan rəssam // "İncəsənət" roman-qəzeti, aprel 2000-ci il.
[3] İbrahimov T.İ. Müasir Azərbaycan rəngkarlığının bəzi təmayülləri Sirus Mirzəzadə yaradıcılığı timsalında // İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), 2016, № 2 (56), s. 86-91.
[4] Вагабова Д. Витражи нашей памяти // журнал «Ваш дом», май, 2002.
[5] Мухтарова Н. Сируз Мирзазаде // из серии «Советские художники», Москва, 1987.
[6] Сирус Мирзазаде. Монументальное искусство. Станковая живопись (Каталог). Вступительное слово Дж.Гасанзаде. Баку, 1987, с. 3-5.
[7] Оруджев Дж. Аура произведений Сируза Мирзазаде // журнал «Галерея», апрель 2004 года.
[8] Hüseynov F. Əməkdar rəssam Sirus Mirzəzadənin fərdi sərgisi açıldı // "Mədəniyyət" qəzeti, 10 dekabr 2014-cü il, s. 5.
[9] Баннаева Н. Царство тайны // газета «Азербайджанские известия», 20 февраля 2013 года.

N.Muxtarovanın [1] və başqalarının yazılarında da öz əksini tapmışdır.

Qeyd edək ki, S.Mirzəzadə ilə bağlı materiallara internetdə daha çox təsadüf olunur. [2] Müxtəlif müəlliflər, əsasən dövri nəşrlərin elektron versiyaları ilə əməkdaşlıq edən jurnalistlər tərəfindən yazılan internet məqalələri, müsahibə və məlumatlar, həmçinin şəkillər rəssamın yaradıcılığı haqqında müəyyən təsəvvür formalaşdırır.

Həmçinin qeyd olunmalıdır ki, bu sahədə iddiaçının da bir neçə məqaləsi çıxmışdır. Bunlardan "Əməkdar rəssam Sirus Mirzəzadənin monumental yaradıcılığı (ötən əsrin 70-ci illər nümunələri əsasında)", [3] "XX əsrin 70-80-ci illəri rəssam Sirus Mirzəzadənin yaradıcılığının erkən mərhələsi kimi", [4] "Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında qadın mövzusu", [5] "Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında "Adəm və Həvva" seriyası" [6] və başqalarını [7], o cümlədən xaricdə nəşr olunanları [8] xatırlatmaq olar.

Yuxarıda S.Mirzəzadənin həyat və yaradıcılığına müraciət etmiş müxtəlif müəlliflərin adlarını çəkdik. Bu müəlliflər arasında C.Həsənzadə, T.İbrahimov, Ə.İbrahimov, D.Vahabova kimi sənəti dərindən bilən, bu sahədə püxtələşən mütəxəssislər vardır. Əlbəttə, bu cəhət özlüyündə çox

---

[1] Мухтарова И. В галерее «Апшерон» состоялась новая выставка // газета «Зеркало», 29 апреля 2009 года, с. 8.

[2] Bu barədə bax: https://worldart2011.wordpress.com/category/mozaika/
http://azertag.az/ru/xeber/Personalnaya_vystavka_zasluzhennogo_hudozhnika_Sirusa_Mirzade_posvyashchena_70_letnemu_yubileyu_mastera-816837
http://www.virtualrm.spb.ru/ru/node/17001
http://news.day.az/culture/541108.html
http://azgallery.az/az/content/46

[3] Vəliyeva N.H.Əməkdar rəssam Sirus Mirzəzadənin monumental yaradıcılığı (ötən əsrin 70-ci illər nümunələri əsasında) // Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransının materialları, Bakı Dövlət Universiteti, 2017, s. 275-276.

[4] Vəliyeva N.H. XX əsrin 70-80-ci illəri rəssam Sirus Mirzəzadənin yaradıcılığının erkən mərhələsi kimi // "Mədəniyyət dünyası" (elmi məqalələr toplusu), XXXIV buraxılış, Bakı, 2017, s. 176-183.

[5] Vəliyeva N.H. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında qadın mövzusu. // İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), 2017, № 1 (59), s. 115-123.

[6] Vəliyeva N.H. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında "Adəm və Həvva" seriyası // "Sənət akademiyası" elmi-nəzəri jurnalı, Bakı, 2018, № 5

[7] Vəliyeva N.H. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında simvolika // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri, 2017. S. 200-209.

[8] Велиева Н.Г. Монументальное и станковое искусство в творчестве Сируза Мирзазаде // «Поиск» (Международный научный журнал-приложение Республики Казахстан), 2017, № 4, с. 45-51.

yaxşıdır. Bununla belə vurğulamaq vacibdir ki, bütövlükdə S.Mirzəzadə barəsində olan yazıların sayı o qədər də çox deyil. Baxmayaraq ki, rəssamın yaradıcılığı, onun cəmiyyətdəki və mədəni həyatdakı mövqeyi zənnimizcə, bundan artığına layiqdir. Əlbəttə, rəssam haqqında yazıların o qədər də çox olmaması onun barəsində irihəcmli elmi-tədqiqat işinin yazılmasını şərtləndirir. Hazırkı işin məqsədlərindən biri də məhz bundan ibarətdir.

S.Mirzəzadə barəsində olan yazılı materialları bütövlükdə üç qrupa bölmək mümkündür ki, bunlar da elmi-nəzəri təhlil, müsahibə-söhbət və məlumat xarakterlidir. Əlbəttə, bizim üçün daha çox önəm daşıyan elmi-nəzəri xarakterli yazılardır. Çünki bu yazılarda rəssamın fəaliyyətinə bilavasitə elmi müstəvidə qiymət verilir. Belə yazılardan T.İbrahimovun, C.Həsənzadənin və D.Vahabovanın məqalələrini xüsusi qeyd etmək istərdik. Bu məqalələr S.Mirzəzadənin yaradıcılığının elmi müstəvidə tədqiq edilməsinin nəzəri bazasını formalaşdırır. Müəlliflər rəssamın yaradıcılığını ümumi planda işıqlandırmaqla yanaşı (bu, məqalələnin formatından irəli gəlir), onun fəaliyyətinin müəyyən bir cəhətinə xüsusi diqqət yetirmişlər. Misal üçün, D.Vahabova rəssamın yaradıcılığında monumental sənəti daha geniş rakursda əks etdirmişdir. C.Həsənzadə onun sənətinin əsas məqamlarına toxunmuş, həm monumental, həm də dəzgah əsərlərinin qısa xülasəsini vermişdir. Şübhəsiz ki, hər iki müəllifin qənaətləri S.Mirzəzadənin yaradıcılığının tədqiq edilməsində əhəmiyyətə malikdir. Lakin zənnimizcə, sənətşünas T.İbrahimovun qiymətləndirmələri elmi-nəzəri baxımdan daha tam və dürüst təsir bağışlayır. Müəllif sənətkarın yaradıcılığını sadəcə nəzərdən keçirməmiş, onun üslub, texnika, məzmun, ideya-bədii istiqamət və s. baxımından əsaslandırılmış məntiqi elmi təhlilini vermişdir. Misal üçün, rəssamın yaradıcılığının iki mühüm cəhəti olan dekorativ təsvir və hissi-assosiativ metodlarına məhz T.İbrahimov diqqət yetirmiş, konkret əsərlər vasitəsilə bu metodların mahiyyətinə aydınlıq gətirmişdir. Lakin əlbəttə, istər T.İbrahimovun, istərsə də başqa müəlliflərin yazdıqları rəssamın yaradıcılığının hərtərəfli təhlilini verə bilmir. Məqalələrin nisbətən kiçik həcmli olması, bir çox hallarda təfsiredici xarakter daşıması buna imkan vermir. Bir sıra hallarda müəlliflər metodoloji yanaşma tərzi nümayiş etdirməklə kifayətlənirlər. [1]

S.Mirzəzadənin yaradıcılığına həsr edilmiş məlumat xarakterli yazılar barəsində də fikir bildirmək istərdik. Belə yazılar əsasən internetdə, sosial şəbəkələrdə yer alır. [2] Məlumatların çox zaman identik xarakter

[1] Гюльрена Мирза. Антропный мир: человек в художественной картине мира // Mədəniyyət dünyası (Elmi-nəzəri məcmuə). XV ADMİU, 2008, s. 249-252.

[2] Bu barədə bax: http://www.kaspiy.az/news.php?id=20410#.WRsBR-vygdU http://www.virtualrm.spb.ru/ru/node/17001

daşımasına, eyni mənbədən götürülməsinə, təhlilin, rəssam yaradıcılığına fərdi münasibətin olmamasına baxmayaraq bu materiallar nəzərə çarpacaq dərəcədə faydalı köməkçi funksiya daşıyır. Onların xeyli qismi ədəbiyyat siyahısına daxil edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Əməkdar rəssam S.Mirzəzadənin çox şaxəli yaradıcılığı – monumental və dəzgah əsərləri təşkil edir. Növündən və yaradıldığı dövrdən asılı olaraq bu əsərlərin böyük bir qismi dissertasiyanın müvafiq fəsillərində təhlil edilmişdir.

Tədqiqatın predmetini rəssam yaradıcılığını xarakterizə edən bədii üslubun müəyyənləşdirilməsi, qiymətləndirilməsi və müxtəlif bədii nümunələr, əsərlər vasitəsilə təhlil olunması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Əməkdar rəssam S.Mirzəzadənin təqribən yarım əsrlık tarixi olan yaradıcılıq xüsusiyyətlərinin öyrənilməsidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- S.Mirzəzadənin yaradıcılığının ümumi mənzərəsinin yaradılması;
- Rəssamın yaradıcılığında monumental sənətin rolunun müəyyənləşdirilməsi;
- Onun yaradıcılığında mühüm yer tutan dekorativ və assosiativ təsvir formalarının əhatəli təhlilinin verilməsi;
- Rəssamın dekorativ üslubunun milli xarakterinin əsaslandırılması;
- Sənətkarın dəst-xəttinin bədii-estetik və fəlsəfi mahiyyətinin təfsir etdirilməsi;
- Müasir avanqard sənətin dekorativ istiqamətinin formalaşmasında onun yaradıcılığının rolunun öyrənilməsi;
- Müasir Azərbaycan təsviri sənətinin zənginləşməsində S.Mirzəzadənin yaradıcılığının əhəmiyyətinin qeyd olunması.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqat işi S.Mirzəzadənin yaradıcılığına olan müxtəlif yanaşmalardan və qiymətləndirmələrdən faydalanmışdır. Tədqiqatın strukturunun müəyyən edilməsində əsasən xronoloji ardıcıllıq metodundan, əsərlərin təhlilində isə müqayisəli təhlil metodundan istifadə edilmişdir. Eyni zamanda S.Mirzəzadənin yaradıcılığının xarakterindən irəli gələn bəzi fərqli cəhətlər metodologiyanın seçilməsinə öz təsirini göstərmişdir. Misal üçün, tarixi ardıcıllıq prinsipi daha çox dissertasiyanın birinci fəsli üçün xarakterikdir ki, bu da işə müəyyən bir başlanğıc vermək, tədqiqatı rəssamın gənclik

---

http://news.day.az/culture/541108.html

illərindən yetkinlik çağlarına doğru qurmaq istəyindən irəli gəlir. Bu prinsip müəyyən qədər dissertasiyanın ikinci və üçüncü fəsillərində də saxlanılmışdır. Lakin bu fəsillərdə əsas bölgü prinsipi kimi tarixi mərhələ yox, bədii üslub əsas götürülür. Çünki S.Mirzəzadə yaradıcılığının müxtəlif dövrlərində eyni tipli mövzulara bir neçə dəfə müraciət etmişdir. Rəssam bəzən bir süjetə, hətta bir kompozisiyaya 10 il, 20 il sonra yenidən qayıdır. Təsadüfi deyil ki, onun eyni adda və müxtəlif dövrlərdə yaradılmış onlarla əsəri vardır. Əlbəttə bütün bunlar ümumi xronoloji ardıcıllığa imkan daxilində riayət etməklə işin quruluşunu daha çox bədii üslubun fərqli cəhətləri əsasında müəyyən etmək zərurətini ortaya qoyur.

**Tədqiqatın sərhədləri** S.Mirzəzadənin bütün yaradıcılığını əhatə edir. Xronoloji baxımdan iş ötən əsrin 70-ci illərindən, yəni gənc rəssamın Moskvada təhsilini başa vuraraq Bakıya qayıtmasından başlanır və rəssamın son dövrlərdə yaratdığı əsərlərin təhlilinə qədər davam edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq Əməkdar rəssam S.Mizəzadə haqqında irihəcmli elmi-tədqiqat işi yazılmışdır. Doğrudur, rəssam haqqında elmi toplularda, dövrü mətbuatda müxtəlif yazılar çap olunub ki, bu barədə mövzunun işlənmə dərəcəsi bəndində ətraflı məlumat verilib. Lakin həmin yazılar həcm etibarilə kiçik olub onun yaradıcılığı barəsində əsasən məlumat tipli təsəvvür yaradır. Hazırkı iş isə elmi-nəzəri kontekstdə yazılmışdır və həm məzmunu, həm də həcmi ilə digərlərindən fərqlənir.

Qeyd olunan bu fikirlər tədqiqatın elmi yeniliyini ümumi şəkildə xarakterizə edir. Konkret müddəalara gəlincə, işin elmi yeniliyi aşağıdakı bəndlərdə öz əksini tapır:

- Tədqiqat işində ilk dəfə olaraq Əməkdar rəssam S.Mirzəzadənin bədii fəaliyyəti əhatəli müstəvidə tədqiq edilmiş, onun yaradıcılığının əsas cəhətləri təhlil olunmuş və ümumiləşdirilmişdir;
- Rəssamın yaradıcılığının erkən dövrünə aid olan monumental tərtibat işləri, obelisk və divar rəsmləri bir-biri ilə əlaqəli və müqayisəli formada təhlil edilmişdir;
- Rəssamın yaradıcılığının erkən mərhələsində işlənmiş dəzgah incəsənəti nümunələri işıqlandırılmış və onun sonrakı dövrlərdə təşəkkül tapmış bədii üslubu ilə müqayisə olunmuşdir;
- Onun bədii üslubunun əsas istiqamətləri olan dekorativ və assosiativ metodlar ayrı-ayrı əsərlərin nümunəsində müqayisəli təhlil edilmiş, bununla da yaradıcılığının ümumi xarakteri təcəssüm olunmuşdur;
- Sənətkarın assosiativ əsərləri psixologizm və ekspressivlik kontekstində nəzərdən keçirilmişdir;

- İlk dəfə olaraq rəssamın əsərlərindən ibarət albom yaradılmış, buradakı şəkillər müəyyən ardıcıllıqla düzülmüş və mətnlə əlaqələndirilmişdir.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.** Dissertasiya Əməkdar rəssam S.Mirzəzadənin çox şaxəli yaradıcılığını əhatəli, sistemli və ardıcıl surətdə tədqiq etməklə onun yaradıcılığı nümunəsində müasir Azərbaycan incəsənətinin inkişaf xüsusiyyətlərini, ondakı milli xarakteri və milli özünəməxsusluğu, dekorativ mahiyyətin təzahür formalarını müəyyən edir.

Dissertasiyadan praktik məqsədlərlə, ilk növbədə elmi-tədqiqat və tədris məqsədləri ilə istifadə edilə bilər. AMEA-nın humanitar elmlər bölməsində, ilk növbədə Memarlıq və İncəsənət İnstitutunda, həmçinin müvafiq ixtisas üzrə incəsənət yönümlü ali təhsil müəssisələrində - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Mədəniyyət və İncəsənət Universitetində, Bakı Xoreoqrafiya Akademiyasında hazırkı tədqiqat işindən faydalanmaq olar. Dissertasiyanın ayrı-ayrı müddəalarından "Müasir Azərbaycan incəsənəti" kursunun tədrisində istifadə etmək mümkündür.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları və nəticələri iddiaçının nəşr etdirdiyi səkkiz məqalədə öz əksini tapmış, həmçinin bu mövzuda respublika və Beynəlxalq elmi konfranslarda məruzə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın məzmunu 151 səhifəlik kompüter yığımında öz əksini tapır. Mövzu ilə əlaqədar seçilmiş illüstrasiyalar ayrıca albomda dissertasiyaya əlavə edilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun məqsəd və vəzifələri, işlənmə dərəcəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti açıqlanır, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**I – fəsil "Sirus Mirzəzadənin erkən dövr yaradıcılığında sənət axtarışları" adlanır.** Fəsil iki yarımfəsindən ibarətdir. **"Rəssamın həyat və fəaliyyətinin erkən mərhələsi"** adlanan birinci yarımfəslində rəssamın erkən sənət nümunələrindən danışılır. Qeyd edilir ki, istedadlı sənətkar, respublikanın Əməkdar rəssamı Sirus Mirzəzadə 1944-cü ildə Cənubi

Azərbaycanın Zəncan şəhərində anadan olmuşdur. O, 1958-ci ildə Bakıya gəldikdən sonra şəhərin mərkəzində, indiki Sahil bağı ilə üzbəüz olan 7 saylı məktəbdə təhsilini davam etdirir. Yeni mühitə düşməsinə baxmayaraq çaşmır, səylə oxuyur, qiymətləri də pis olmur. Həm də onun 14 yaşına qədər İranda oxumasını müəllimləri nəzərə alırdılar. Tezliklə gənc Sirus Ə.Əzimzadə adına rəssamlıq məktəbinin qrafika bölməsinə daxil olur. Rəssam özü xatırlayır ki, bu gün Azərbaycan təsviri sənətinin tanınmış simaları ilə ilk dəfə orada qarşılaşıb. Ağaəli İbrahimov, İsmayıl Məmmədov və başqa rəssamlarla rəssamlıq məktəbində eyni dövrdə oxuyub. 1966-cı ildə burada 4 illik təhsilini başa vurduqdan sonra gənc Sirus Moskvaya üz tutdu və nüfuzlu ali məktəblərdən olan məşhur Stroqanov adına Moskva Ali Bədii-Sənaye məktəbinə qəbul olundu [88]. Onun sənət müəllimləri Zamkov, Korjev, Borodiçenko kimi tanınmış rəssamlar olmuşlar. Sirus Mirzəzadə onlardan çox şeyi əxz etmişdi. Hətta çox sonralar öz rəmzi-dekorativ xarakterli bədii üslubunu yaratdıqda belə İnstitutda, sənət dərslərində qazandığı akademik vərdişlər ona yardım edirdi. Gənc rəssam 1972-ci ildə Moskva Ali Bədii-Sənaye məktəbini "Monumental-dekorativ rəssamlıq" bölməsini müvəffəqiyyətlə başa vuraraq Bakıya döndü.

80-ci illərdə tarixi tematik tablolar S.Mirzəzadənin dəzgah rəngkarlığında önəmli yer tuturdu. Vətən məhəbbəti, ailə sevinci, doğma Bakıya olan səmimi münasibətin təzahürü onun tematikasının xarakterini müəyyənləşdirən əsas cəhətlər olmuşdur. Artıq həmin dövrdə S.Mirzəzadənin yaradıcılığındakı bu və başqa xüsusiyyətləri sənətşünaslar görərək onun tablolarına qiymət verməyə çalışırdılar. "Bunlar: "Mənim əcdadlarımın torpaqları" (1983), "Suzanın yuxusu", "Rəssamın qonaqları" (hər ikisi - 1984), "Sabahın xeyir, Bakı", "Mənim ailəm" (hər ikisi 1985) və başqalarıdır. Rəssam qızına həsr etdiyi "Suzanın yuxusu" rəsmində reallıqla nağılın qovuşduğu uşaqlığın işıqlı dünyasını çəkmişdir. Yatan qızın qeyri-üsyankar yuxuları rəssamın fırçası ilə maddiləşərək onun ətrafında yerləşir; aydın rəssamlıq əsərində ağ yastıqda onun qara saçları görünür". [1]

Ötən əsrin 80-ci illərində S.Mirzəzadə tematika, portret, məişət janrları ilə yanaşı, natürmort janrında da fırçasını sınamışdır. Ümumiyyətlə, hər bir gənc rəssamda olduğu kimi, S.Mirzəzadənin də yaradıcılığında bu dövr axtarış dövrü kimi qiymətləndirilə bilər. Ona görə də 70-80-ci illərdə rəssamın müxtəlif janrlara üz tutması təsadüfi deyildi. Bu janrların

---

[1] Мухтарова Н. Сируз Мирзазаде // из серии «Советские художники», Москва, 1987.

bəzisində müvəffəqiyyət qazana bilməsə də, digərlərində hisslərini, düşündüklərini daha aydın və dolğun şəkildə əks etdirə bilirdi. Bu baxımdan natürmort janrı onun ta gənclik illərindən məşğul olduğu və bu gün də müraciət etdiyi janrlardandır. Göründüyü kimi, rəssam hələ 80-ci illərdə natürmort sahəsində diqqət çəkən əsərlər yaratmağa nail olmuşdu. Sonrakı dövrlərdə, o cümlədən müasir dövrdə S.Mirzəzadə natürmorta rəmzi aləmin bir hissəsi kimi yanaşaraq onu yaradıcılığına xas dekorativ elementlərlə zənginləşdirir.

**I-fəslin ikinci yarımfəsli "Monumental-dekorativ əsərlərdə milli tematika"** adlanır. Bu yarımfəsildə əsas tədqiqat predmeti kimi rəssamın monumental əsərləri müəyyənləşdirilmişdir.

Sirus Mirzəzadənin yaradıcılığında monumental incəsənətin öz yeri vardır. Xarakterik haldır ki, monumental sənət rəssamın fəaliyyətinin erkən mərhələsinə, əsasən ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Bu da təsadüfi deyil, belə ki, məhz həmin dövrdə Bakının bir çox yerlərində, əsasən şəhərətrafı fəhlə qəsəbələrində maraqlı obelisklər, digər monumental abidələr ucaldılır, qəhrəman Azərbaycan neftçilərinin əməyini, xalqımızın zəngin maddi mədəniyyətini əks etdirən irihəcmli kompozisiyalar inşa edilirdi.

Sirus Mirzəzadənin iştirakı ilə hazırlanan monumental kompozisiya - "Səadət" mozaikası Bakının mərkəzindəki Zərgərpalan küçəsində, məşhur Səadət sarayının yan tərəfindəki o qədər də böyük olmayan açıq sahədə yerləşir (1975; müəlliflər Sirus Mirzəzadə, Rəşid Heydərzadə, Arif Ələsgərov, Elxan Tahirov). Kollektiv əməyin bəhrəsi olan bu rəngarəng mozaika əsəri istinad etdiyi divarın formasına uyğun olaraq nisbətən dar və uzunsov kompozisiyaya malikdir. Rəngarəng, bəzi hissələri relyefli olan kompozisiyanın ideya-estetik əsasını Azərbaycan xalqının mənəvi dəyərlərinin, onun milli musiqi mədəniyyətinin təcəssümü təşkil edir. Kompozisiyanın mərkəzində verilmiş milli musiqi alətləri – tar, kamança, zurna və nağara yaxın məsafədəki Səadət sarayından ucalan toy havası tərənələri ilə assosiasiya edilir. Kompozisiyanın "Səadət" adlandırılması da bununla əlaqədardır.

Rəssamın monumental yaradıcılığında mühüm yer tutan abidələrdən biri də Bakının Səbayel rayonunun "20-ci sahə" adlanan ərazisində yerləşən məşhur "Fəhlə əlləri" obeliskidir (1978). Əsər eyni müəllif kollektivi tərəfindən hazırlanmışdır. Üç il öncə "Səadət" kompozisiyasını uğurla yerinə yetirən müəlliflər yaradıcılıq əlaqəsini "Fəhlə əlləri" obeliskində davam etdirdilər. Obelisk şəhərə girişin cənub istiqamətində yerləşərək bir növ onun rəmzi ifadəsinə çevrilmişdir.

Magistral yol kənarında yerləşən obelisk artıq xeyli aralıdan yaxşı nəzərə çarpır və uca silueti, lakonik bədii həlli ilə diqqəti cəlb edir.

S.Mirzəzadənin interyer tərtibatı sahəsindəki erkən işlərindən biri AMEA Riyaziyyat İnstitutunun konstruktor bürosuna mənsub olmuş binanın interyer bəzəkləridir. Vaxtilə burada gənc alimlər üçün "Maraqlı görüş klubu" yaradılmışdı. 1980-84-cü illərdə o, rəssam dostu İ.Məmmədovla birlikdə həmin binanın interyer tərtibatını vermişdir. Maraqlıdır ki, interyerin tağvari quruluşu (burada əvvəllər köhnə hamam yerləşirdi) bədii kompozisiyanın milli-dekorativ üslubu ilə estetik ahəngdarlıq təşkil edir. Başqa sözlə, müəlliflər interyerin zahiri görünüşünü kompozisiyanın süjet xətti ilə uyğunlaşdırmağa müvəffəq olmuşlar. Bu xüsusiyyət hələ bədii tərtibat işlərinin tamamlanması prosesində mətbuatda öz əksini tapmışdı: "O, indi sənət dostu İsmayılla Bakıdakı köhnə hamamlardan birini bəzəyir. Hamam binasında EA Riyaziyyat institutunun xüsusi konstruktor bürosu yerləşir. Ağıllı fikirdir, boş-bekar qalmış tağlı-tavanlı, özünə məxsus memarlıq üslubunda tikilmiş alt mərtəbəni qədim miniatür boyakarlığı ilə bəzəmək, müasir tələblər səviyyəsində bərpa etmək". [1]

AMEA Riyaziyyat İnstitutu konstruktor bürosunun interyer tərtibatı həmin dövrdə bir çox tədqiqatçıların diqqətini cəlb etmişdi. Çünki bu tərtibat məzmun və kolorit etibarilə o dövrdə dirçəlməyə başlayan milli-dekorativ məzmuna yaxın idi. "Öz əsərlərində rəssam monumental sənətin qədim texnikasına – freskaya (divar naxışına) müraciət etmişdir. Bununla da 80-ci illərdə o, divar naxışı sahəsində böyük yaradıcılıq uğurları əldə edir". [2]

Kompozisiya əsasını kiçik, lokal süjetlərin təşkil etdiyi bu məkan həmin dövrdə təsviri sənətdə öz yeni inkişaf mərhələsinə qədəm qoymuş "ənənə və müasirlik" qarşılığının yeni təzahür forması idi. Bu forma milli xarakterin qabarıq əks olunduğu lokal süjetlər vasitəsilə gerçəkləşdirilmişdi. Milli güləş, ov, rəqs təsvirləri bu qənaəti daha da gücləndirirdi.

Rəssamın interyer tərtibatı sahəsindəki əsas işlərindən biri vaxtilə Fəvvarələr meydanında yerləşən "Retro" fotostudiyasının divar rəsmlərindən ibarətdir. Gənc alimlərin "Maraqlı görüş klubu"nun tərtibatından sonra bu məkan rəssamın yeni sənət nailiyyəti oldu. Burada

[1] Əliyev T. Suzanın nağıl dünyası // "Qobustan" incəsənət toplusu, 1984, № 3.

[2] Сируз Мирзазаде. Монументальное искусство. Станковая живопись (Каталог). Вступительное слово Дж.Гасанзаде. Баку, 1987, с. 3.

da o, İ.Məmmədovla bir yerdə işlədi, milli-dekorativ sənətin maraqlı görüntülərini yaratdı. Həmin tərtibat nümunələri 1987-ci ilə aiddir.

S.Mirzəzadənin daha bir maraqlı monumental rəngkarlıq nümunəsi vardır. Bu, Bakının mərkəzində, Gənc Tamaşaçılar Teatrının (GTT) eksteryerini bəzəyən, kiçik kvadratlardan təşkil edilmiş massiv formalı dekorativ kompozisiyadır. Bakı sakinləri arasında onların yanından ötüb keçməyən, onlara nəzər salmayan adam tapmaq bəlkə də mümkünsüzdür. Lakin heç də hamı bilmir ki, bu rəngarəng, milli və rəmzi xarakter daşıyan keramika tavacıqlarının müəllifi Əməkdar rəssam Sirus Mirzəzadədir. Həmin kompozisiyanı rəssamın bu gün də şəhərimizi bəzəyən monumental rəngkarlıq işləri arasında ən yaddaqalanlardan biri hesab etmək olar.

Dissertasiyanın **II – fəsli "S.Mirzəzadənin yaradıcılığında dekorativ təsvir metodu"** adlanır. Bu fəsil də iki yarımfəsildən ibarətdir. "**Lirik simvolikanın dekorativ ifadə vasitələri"** birinci yarımfəsildə rəssamın yaradıcılığı üçün xarakterik olan dekorativ təsvir metodu və onu xarakterizə edən bədii üslub formaları nəzərdən keçirilir. Qeyd olunur ki, Sirus Mirzəzadənin rəngkarlığı bir sıra fərdi xüsusiyyətləri ilə yadda qalır. Əvvəla, rəssam əksər tablolarında xətti quruluşa riayət etsə də, işıq-kölgədən istifadə etmir; bu cəhət rəssamın yaradıcılığının qabarıq nəzərə çarpan cəhətlərindən biridir. İkincisi, rəssam bəzi əsərlərində obrazları neytral fonda əks etdirir. Neytral fon süjet xəttini sanki ön plana çəkir və rəssamın dəst-xəttinə uyğun forma, əhvali-ruhiyyə əmələ gətirir. Hər iki cəhət rəssamın yaradıcılıq yolunun yetkin mərhələsinə aiddir. S.Mirzəzadə yaradıcılığının erkən mərhələsində daha çox monumental rəngkarlığa, tətbiqi incəsənətə meylli olmuşdur. Onun fərdi dəst-xəttinin formalaşması məhz həmin dövrə təsadüf edir.

S.Mirzəzadənin yaradıcılığında işarə-simvol münasibətləri çox inkişaf etmişdir. Onun 80-ci illərdən sonrakı dövrə aid dəzgah yaradıcılığında işarə-simvol münasibətləri rəssamın yaradıcılıq dünyagörüşünü, daxili aləmini ifadə edir. Bu aləmdə simvolik formalar yetərincədir. İstər-istəməz xatırlayırıq ki, S.Mirzəzadə hələ ötən əsrin 70-ci illərində monumental rəngkarlıqda simvolik forma və detallardan istifadə etmişdi. "Fəhlə əlləri" obeliskində kompozisiyanın əsasını təşkil edən əllər, "Səadət" əsərindəki milli musiqi alətləri belə detallardan hesab oluna bilər. Sonralar rəssam simvolika səciyyəli forma və detalları inkişaf etdirərək onları dəzgah rəngkarlığına daxil etmişdir. Həm də bu zaman simvolizm elementləri daha çox fərdi dünyagörüşü xüsusiyyətləri kəsb etməyə başlamışdır. S.Mirzəzadənin yetkin dövr yaradıcılıq dəst-xəttinin əsasında bu xüsusiyyət dayanır.

80-ci illərdə rəssam neytral fonda bir sıra əsərlər işləmişdir. Bunlardan ikona tipli diptix daha çox maraq doğurur. “Üz-üzə” (1988) adlanan bu kompozisiya iki müstəqil portret-hissədən ibarətdir. Əsər kətan üzərində yağlı boya ilə işlənmişdir. Üz-üzə dayanan kişi (bunu avtoportret də adlandırmaq olar) və qadın portretlərində insan münasibətləri zahirən sadə, fəqət daxilən mürəkkəb formada, dərin fəlsəfi-psixoloji aspektdə əks edilmişdir.

Rəssamın “Sevgililər” adlı əsərində qadın mövzusu heç də birmənalı izah edilə bilməz. Əsərin adında onun məhəbbət mövzusunda olması əks etdirilsə də burada fəlsəfi dünyagörüşü güclüdür. Əsərin kompozisiyası xeyli sadə olub mifik xarakter daşıyır. Burada balıq-adam şəklində əks edilmiş qadın və kişi (sonuncu həm də avtoportretdir; rəssam yaradıcılığı boyu onlarla bu tipli avtoportret yaratmışdır) təsvir olunub. Əsərdə xətti quruluş bilərəkdən təhrif edildiyindən əslində üz üzə dayanmış sevgililər yan yana dayanmış kimi görünürlər. Bir birinə baxan qadın və kişinin əynində adi geyim vardır. Qadın qırmızı qolsuz kofta, kişi isə sarı köynək geymişdir. Lakin onlar qurşaqdan aşağı balıq formasındadırlar. Hər ikisinin bədəni və quyruğu sarı, göy, yaşıl və başqa rənglərlə rənglənmiş romblarla, kvadratlarla bəzədilmişdir. Kiçik zərrəciklərdən, nöqtə və ləkələrdən yaradılmış neytral qırmızı fonda bu dekorativ bəzək nümunələri həm rəngarəng, həm də mifik təsir bağışlayır. Qadın tematikasında dekorativizm elementləri rəssamın hələ 1996-cı ildə işlədiyi “Həvəs oyatma” adlı kompozisiyasında da özünü göstərir. Rəssamın dəst-xətti üçün xarakterik olan ştrixlərə, bədii ifadə vasitələrinə bu tabloda da rast gəlinir. Əslində “Həvəs oyatma” tablosu portret kimi səciyyələndirilə bilər. Çünki burada yaxın planda və dekorativ xarakterli neytral fonda qadın profili əks edilib. Qadının bəyaz siması, çılpaq çiyinləri eyni tonlu rəng həllinə malikdir. Bu cəhəti rəssamın əksər tablolarında müşahidə etmək olar. Lakin üz cizgilərinə gəlincə, S.Mirzəzadə bir rəssam kimi müxtəlif formalardan istifadə edir. Əgər surət ölçü etibarilə kompozisiyanın nisbətən az hissəsini əhatə edirsə, rəssam, bir qayda olaraq, üz cizgilərinin verilməsindən tamamilə imtina edir. Bu halda surətin başı sadəcə oval formalı bəyaz kontur kimi tamaşaçının gözləri önündə canlanır. Belə təsvirlərdə surətin daxili aləminin əks olunması köməkçi vasitələr – poza, əllərin qoyuluşu, həmçinin işarə sistemləri – geyim, aksessuar, yardımçı detallar və s. vasitəsilə gerçəkləşdirilir.

**II – fəslin ikinci yarımfəsli “Rəssamın yaradıcılığında qadın mövzusu”** adını almışdır. S.Mirzəzadənin yaradıcılığında qadın mövzusu

geniş təmsil olunub. [1] Rəssamın yaratdığı qadın surətləri həm portret, həm də tematik səciyyə daşıyır. Bu əsərlərin işlənmə üslubu, rəng həlli onların lirik-psixoloji mahiyyətinin üzə çıxmasında həlledici rol oynayır. Rəssamın əsərlərindəki fərqli qadın surətlərinin mahiyyətini daha dərindən qiymətləndirmək üçün, əvvəlcə onun yaradıcılığına nəzər salmaq, sənətkar dəst-xəttini müşahidə etmək lazımdır.

İlk olaraq rəssamın kompozisiya xüsusiyyətlərini önə çəkmək istərdik. Sirus Mirzəzadənin tablolarında əsas konstruktiv cəhət kompozisiyanın sadəliyi, onun birxətli müstəvi üzərində qurulmasıdır. Rəssam artıq elementlərdən imtina etməklə əsərin ideya-bədii məzmununun "maneəsiz" dərk edilməsində tamaşaçıya sanki yardım edir. Sənətkarın əsərlərinin böyük qismində kompozisiya ön xətdə verilmiş surətlərdən (bədii obrazlardan) təşkil olunmuşdur. Arxa plan isə daha çox mücərrəd, qeyri-müəyyən elementlərdən quruluraq ideyanın açıqlandığı ön xətt üçün bir növ estetik fon missiyasını daşıyır. Bunu müəyyən mənada aktyorun teatrda bağlı pərdə önünə çıxması ilə müqayisə etmək olar. Bağlı pərdə diqqəti obraza yönəltdiyi kimi, S.Mirzəzadənin arxa planda işlədiyi ümumiləşdirici xarakterli bədii detallar məcmusu da diqqəti süjet xəttinin qurulduğu ön müstəviyə yönəldir, eyni zamanda məzmunun dərk edilməsi üçün əlavə (yönəldici) stimul yaradır. Rəssam buna bəzən konkret, yaxud ümumiləşdirilmiş predmetlər, bəzənsə predmetsiz formada, misal üçün rəng effektləri vasitəsilə nail olur. Buna konkret nümunələrdə nəzər salaq. "Adəm və Həvva" seriyasından olan tabloda fon, demək olar ki, müstəqil qavranılan yaxın planlı mənzərə görüntüsündən ibarətdir və əsərin lirik ovqatının diqqətə çatdırılmasında mühüm rol oynayır. [2] Lakin "Çılpaq fiqur"da bunun tam əksini görürük. Bu tabloda rəssam nəinki arxa planda, hətta kompozisiyanın əsasını təşkil edən uzanmış qadın fiqurunun işlənməsində şərtilik xüsusiyyətlərinə geniş yer ayırmışdır. Əsərdə fon gül-çiçəklə assosiasiya olunan isti rəng topalarından qurulub. Eyni zamanda bu rəng topaları bəzən obrazdan qabağa çıxaraq təkcə fon yox, həm də ümumiyyətlə, ətraf mühit effekti yaradır. Beləliklə, əsərin lirik məzmunu rənglər vasitəsilə öz ifadəsini tapır. Arxa planla ön plan vahid şaquli müstəvidə qurulduğundan uzanmış qadın sanki havada süzürmüş kimi maraqlı, təzadlı optik təəssürat yaradır.

---

[1] Женщина – самое прекрасное, что создал Бог – художник Сируз Мирзазаде http://www.trend.az/life/interview/2342171.html

[2] Заслуженный художник Сируз Мирзазаде будут создавать все новые и новые произведения http://azertag.az/ru/xeber/china-816919

S.Mirzəzadənin yaradıcılığında “Ulduz bürcü” seriyası mühüm yer tutur. Rəssam kompozisiyada lokal naxış qrupları əks etdirməyi xoşlayır. Bu naxışlar onun yaradıcılığının tanınan bədii elementidir. Lakin sözü gedən “Bürclər” seriyasına daxil edilən rəsmlərdə naxış qrupları ümumi düzbucaqlı kompozisiyadan sanki qırağa çıxaraq haşiyəyə bənzər bəzək tipi əmələ gətirir. Bu cəhət 12 rəsmin hər birinə xasdır və onların bir-birinə bənzəməsində, eyni zamanda digər əsərlərdən seçilməsində müəyyən rol oynayır.

Məlum olduğu kimi bürclər seriyası il uzunu davam edir və 12 lövhədən ibarətdir. Lakin il boyu müşahidə edilən fəsil dəyişiklikləri rəssamın kompozisiyalarında öz əksini tapmayıb. Bu rəsmlərdə nə qışın, yaxud payızın soyuqluğunu, nə baharın ılıq nəfəsini, nə də qızmar yayın isti və bürküsünü görüb hiss etmək mümkün deyil. Çünki rəssam görüntülərdə yerin deyil, səmanın xüsusiyyətlərinin təcəssüm etdirilməsinə üstünlük vermişdir. Lakin təsvirlər səmavi məzmuna malik olsalar da, buradakı obyektlər sırf “yer” xarakteri daşıyır. Əlbəttə, buraya ilk növbədə çılpaq fiquru daxil etmək lazım gəlir. Çılpaq fiqur yer xassəlidir; lakin rəssam onu əslində səmavi yetkinliyi, qüsursuzluğu özündə ehtiva edən mələk obrazında gözlərimiz önündə canlandırmışdır.

Diqqət çəkən başqa bir məqam isə ənənəyə uyğun olaraq hər bir bürcün xarakterik detal və elementlərinin rəsmlərdə əks etdirilməsidir. Dolça, Balıqlar, Əkizlər, Şir, Tərəzi və s. bürclər rəsmlərdə öz konkret, vizual ifadə formalarını tapmışlar. Rəssam hər bürcün xarakterik əlamətlərini simvollar vasitəsilə əks etdirməklə həmin bürcə xas olan xüsusiyyətləri bədii vasitələrlə açıb göstərməyə çalışmışdır. Hətta Əkizlər bürcünü təsvir edən müəllif rəsmdə iki çılpaq fiqur (əkiz qızlar) təsvir etmişdir. Halbuki digər rəsmlərdə o, yalnız bir çılpaq fiqur əks etdirməklə kifayətlənir.

**Tədqiqat işinin III - fəsli “Rəssamın yaradıcılığında rəmzi-assosiativ obrazların təzahürü”** adlanır. Bu fəsli üç yarımfəsli özündə birləşdirir. Birinci yarımfəsil **“Assosiativ düşüncənin kompozisiya və obrazlarda təcəssümü”** adlanır ki, bu da S.Mirzəzadənin yetkin dövr yaradıcılığı üçün səciyyəvidir və bir növ bədii axtarış xarakteri daşıyır. Onun yaradıcılığının mahiyyətinin açılmasında assosiativ duyğuların və rəmzi məna kəsb edən işarə-təsvir qarşılığının böyük əhəmiyyəti var. Belə demək mümkündür ki, rəssam əsərlərində məhz rəmzi elementlərin və işarə-təsvir xüsusiyyətlərinin dili ilə danışır. Onun yaradıcılıq estetikasını düzgün müəyyənləşdirmək üçün üslub dilinin semantikasını da düzgün anlamaq mühüm şərtdir.

Əksər hallarda S.Mirzəzadənin yaradıcılığında hissi-assosiativ və rəmzi xarakterli təsvir vasitələrinin meydana gəlməsini sənətkarın yaradıcılığının yetkin dövrü ilə əlaqələndirirlər. Bu barədə müxtəlif sənətşünasların, o cümlədən T.İbrahimovun maraqlı mülahizələri vardır ki, hazırkı tədqiqat işində onlardan sitat gətirilmişdir. Lakin fikrimizcə, hissi-assosiativ və rəmzi xarakterli tablolar arasında zamandan irəli gələr müəyyən fərqlər vardır.

Hissi-assosiativ duyğulara gəlincə, bu, həqiqətən də rəssamın yaradıcılığının yetkin dövrünə aiddir. Bu dövrün sərhədini şərti olaraq 90-cı illərdən götürmək olar. Çünki 90-cı illərə qədər onun yaradıcılığında hissi-assosiativ psixologizmlərə rast gəlmirik. Eyni zamanda rəssam axtarış və sınaq xarakterli hissi-assosiativ formalara müraciət etməklə yanaşı, onun üçün ənənəvi olan bədii formalardan da imtina etmir. Onun yaradıcılıq təkamülünün məhsulu olan yeni formalar köhnələri sıxışdırıb aradan çıxarmır, uzun müddət, bəlkə də daimi olaraq onlarla yanaşı, belə demək mümkünsə, "paralel" inkişaf edir.

Bu fikir rəssamın yaradıcılığını təhlil etmiş digər tədqiqatçıların qənaətlərində də əks olunur: "Sirus Mirzəzadə yaradıcılığının digər maraqlı xüsusiyyətlərindən biri də rəssamı maraqlandıran mövzu və motivlərə dəfələrlə qayıtması ilə bağlıdır. İllər keçməsinə baxmayaraq, rəssam dönə-dönə eyni motivlərin və obrazların yeni təsvir variantlarını yaradır. Bu, həmin obrazların rəssam təxəyyülündə "çoxpilləli", "çoxqatlı" olması ilə əlaqədardır". [1]

Rəssamın "İkiüzlü insan" (1999) tablosunda assosiativ məzmun güclüdür. Əsərin ümumi quruluşu, tünd rəng həlli həm hissi-assosiativ, həm də psixoloji ekspressiya əhvali-ruhiyyəsi yaradır. Eyni zamanda əsərin işlənmə texnikası, təsvir olunan surətin konturları rəssamın son dövrlər üçün xarakterik olan üslub tərzini xatırladır. "İkiüzlü insan" ideya-bədii və daşıdığı məna yükü baxımından "Qırmızı mənzərə", "Uzağa baxanlar" və ya "Bu günün sabahı da var" əsərləri ilə səsləşir. Lakin kompozisiya, kolorit və üslub baxımından onların fərqləri az deyil. "İkiüzlü insan" əsərində, adından göründüyü kimi, iki siması olan şəxs təsvir edilib. Həmin adam kompozisiyanın mərkəzində, ön və iri planda əks olunmuşdur. O, əllərini yuxarı qaldıraraq emosionallıqla nə isə izah etməyə, sanki kənarda onu dinləyənləri inandırmağa çalışır. İkiüzlü insanın bir üzü sola, digər üzü

---

[1] İbrahimov T.İ. Müasir Azərbaycan rəngkarlığının bəzi təmayülləri Sirus Mirzəzadə yaradıcılığı timsalında // İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), 2016, № 2 (56), s. 86-91.

sağa çevrilmişdir. Bu baxımdan o, Qədim Roma mifologiyasındakı ikiüzlü Yanusu xatırladır. Lakin Yanusun simaları keçmişə və gələcəyə sarı yönəldiyi halda, ikiüzlü şəxsin hər iki üzü indiki zamana yönəlib. Tabloda yaxın keçmişin üzdəniraq ictimai və siyasi "xadim"lərinin ikiüzlü təbiəti, ikibaşlı oyun aparmaları mücərrəd bədii formalarla ümumiləşdirilmişdir. Əlbəttə, rəssam siyasətdən uzaqdır. Belə bir insanın təsviri siyasi mövzuya yox, insan, bəşər övladı mövzusuna yönəlmişdir. Rəssam ikiüzlü insanı psixoloji müstəvidə təqdim edərək onun eybəcər daxili dünyasını açıb göstərməyə çalışmışdır.

Qeyd etmək istərdik ki, rəssam yaradıcılığının müxtəlif dövrərində mənzərə janrına müraciət edib. Bununla belə, hesab edirik ki, mənzərə janrı rəssamın yaradıcılığı üçün o qədər də xarakterik deyil. Eyni zamanda onun işlədiyi mənzərələrdə dəst-xəttinin xarakterik cizgilərini görmək mümkündür.

"Arazın sahilində" (1991) adlı mənzərə rəssamın yaradıcılığının yetkin dövrü üçün xarakterik olan mücərrəd assosiativ səpkidə işlənmişdir. Ümumiyyətlə Araz mövzusu, bir qədər də dəqiq ifadə etsək. Cənub mövzusu S.Mirzəzadənin yaradıcılığında xüsusi mövqe tutur. Təbii ki, bu, onun əslən Cənubi Azərbaycandan olması ilə əlaqədardır. Tablo başdan-başa assosiativ rəng duyğularından ibarətdir. Kompozisiyada əşyalar rənglər vasitəsilə əks olunur. Tünd fonu olan kompozisiyanın mərkəzində iki köndələn fiqur-rəng diqqəti cəlb edir. Bunlardan yuxarıdakı tünd qırmızı, aşağıdakı isə sarı rəngdədir. Onların ətrafinda açıq rəngli müxtəlif yaxmalar qruplaşdırılmışdır. Güman etmək olar ki, iki assosiativ zolaq – Araz çayının iki sahilini simvolizə edir. Ətrafda qruplaşdırılmış açıq rəngli ləkələr isə sərhədboyu obyektləri, binaları, nəyahət, insan qruplarını, hətta ayrı-ayrı adamları əks etdirir.

**Üçüncü fəslin ikinci yarımfəsli "Adəm və Həvva" seriyası çoxcəhətli sənət axtarışlarının bəhrəsi kimi"** adlanır. Bu yarımfəsildə S.Mirzəzadənin yaradıcılığında mühüm yer tutan "Adəm və Həvva" seriyası tədqiq olunur.

"Adəm və Həvva" seriyası kompozisiya və kolorit baxımından bir-biri ilə bağlı deyil. Bunun əsas səbəblərindən biri rəssamın həmin seriyanı uzun illər ərzində yaratması, bu müddətdə bir sənətkar kimi özünün də inkişaf etməsi, dəst-xəttinin püxtələşməsidir. Bu seriyaya daxil olan tablolar zahiri görünüş etibarilə rəssamın yaradıcılığının erkən və yetkin mərhələlərini əks etdirirlər. Xatırlayaq ki, S.Mirzəzadənin rəmzi-dekorativ üslubu 90-cı illərin sonlarında formalaşmışdır. Bu illərdəki əsərlərə müəyyən üslub ümumiliyi, rəmzi mahiyyət xasdır.

“Adəm və Həvva” seriyasının əsas cəhətlərindən biri də burada yalnız iki nəfərin – Adəmin və Həvvanın təsvir edilməsidir. Bu seriyada üçüncü şəxsə təsadüf edilmir. Geniş mənada rəssamın yalnız bir qadın və bir kişi təsvir edilmiş bütün əsərlərini həmin seriyaya daxil etmək olar. Bu mənada “Adəm və Həvva” seriyası əslində daha genişdir.

“Adəm və Həvva” seriyasını şərtləndirən cəhətlərdən biri tabloların böyük əksəriyyətinin adının olmasıdır. Bu mənada həmin tabloların hər biri ayrıca əsər hesab oluna bilər. Yalnız ideya-bədii xüsusiyyətlərin məcmusu, həmçinin qadın və kişinin təsvir olunması müstəqil kompozisiyalı əsəri sözü gedən silsiləyə daxil edir. “Adəm və Həvva” seriyasının maraq doğuran məqamlardan biri də kişi obrazında müəllifin özünü təsvir etməsidir (lakin bu xüsusiyyət heç də bütün əsərlərə aid deyil). Söyləmək mümkündür ki, həmin seriyaya aid olan tabloların xeyli qismi avtoportret səciyyəsi daşıyır. Belə bir cəhət də diqqət çəkir ki, erkən mərhələdə (80-90-cı illərdə) S.Mirzəzadə həmin seriyaya daxil olan əsərlərdə özünü təsvir etmirdi. Rəssamın “Adəm və Həvva” seriyasında öz obrazını yaratması tendensiyası əsasən 2000-ci illərə aiddir və bu tendensiya müəllifin yaradıcılığında bu gün də müşahidə edilməkdədir. Nəhayət, bunu da qeyd edək ki, seriyanı təşkil edən tabloların əksəriyyəti rəngkarlıq, bir qismi isə müxtəlif texnikalarda işlənmiş qrafika nümunələrindən ibarətdir. Haşiyə çıxaraq vurğulayaq ki, bu cəhət (eyni kompozisiyanı rəngkarlıq və qrafika növlərində işləmək) ümumiyyətlə rəssamın yaradıcılığına xasdır. Belə ki, bəzən o, eyni süjeti iki variantda - qrafika (kağız üzərində və kiçik formatda) və rəngkarlıq (kətan, yaxud karton üzərində nisbətən böyük ölçüdə yağlı boya, və ya akril ilə) variantlarında işləyir. Hər iki halda müəllif həndəsi xarakterli dekorativ bəzək elementlərindən istifadə edir.

“Adəm və Həvva” seriyasına tamaşa etdikcə onun müəllifinin yaradıcılıq xüsusiyyətlərinin yeni-yeni çalarlarını müşahidə etmək olar. Bu baxımdan rəssamın “Cazibədar” adlı əsəri (1994) maraq doğurur. Digər əsərlər kimi burada da ənənəvi kompozisiya quruluşu saxlanılmışdır. Rəssam əsərin süjet xəttini ön planda, yaxın məsafədə, simmetrik formada qurmuş, uzaqda olmayan arxa planı müxtəlif dekorativ elementlərlə, neytral rənglərlə “bağlamışdır” Rəssam hər iki surətin siluetini eyni tonlu rənglərlə (qadını açıq, kişini isə bir qədər tünd qəhvəyi) rənglərlə “örtmüşdür”. Lakin hər halda bu siluetlərdə müəyyən üz ifadəsi, qaş-göz, saç və s. vardır. Məhz buna görə buradakı surətləri tam siluet deyil, real görünüşdən siluetə keçid kimi qiymətləndirmək daha münasibdir. Tabloda maraqlı olan cəhət hər iki obrazın zoomorf xarakter daşımasıdır. Bu cəhət rəssamın sevdiyi ifadə vasitələrindən biridir. O, qəhrəmanlarını (o cümlədən özünü) quş, balıq və

digər canlı formasında təsvir etməyi xoşlayır ki, bu da folklordan gələn bir xüsusiyyətdir. Hazırkı tabloda müəllif həm özünü (burada o, Adəm rolunda çıxış edir), həm də onunla üzbəüz dayanan xanımı quş formasında təsvir etmişdir. Daha dəqiq ifadə etsək, onlar nağıllarda olduğu kimi qurşaqdan yuxarı insan, qurşaqdan aşağı isə quş formasındadırlar. Təbii ki, bu quşların bədəni şərti zahiri görünüşə malik olub primitivizm üslubunu xatırladır. Kompozisiya əlvan və müxtəlif detallardan təşkil edilən arxa plan həllinə malikdir. Bu xüsusiyyətinə görə də təhlil olunan əsər digərlərindən seçilir. Rəssam burada qırmızı rəngdən demək olar ki, istifadə etməyib. Lakin kompozisiyada yarımqövs şəklində əks olunan mavi qurşaq əsərə sanki bir yüngüllük, koloritdə təzahür edən xoş ovqat gətirir. Bu mavi qurşaq rəssamın çox sevdiyi bəzək tipli müxtəlif bədii elementlərlə - romb, üçbucaq, dairə və s-lə bəzədilmişdir. Bunun arxasında isə yuvarlaq ağac çətirini xatırladan iki yaşıl topa diqqəti cəlb edir.

**Üçüncü fəslin üçüncü yarımfəsli "Rəssamın yaradıcılığı assosiativ və dekorativ formaların sintezi kontekstində"** adlandırılmışdır. Adından bəlli olduğu kimi, sonuncu yarımfəslin tədqiqat obyekti kimi rəssamın yaradıcılığına xas olan assosiativ və dekorativ formaların qarşılıqlı təhlili, onların üslub, ideya, kolorit və s. baxımından bir-biri ilə əlaqələri çıxış edir. Bu münasibətlər özünü natürmort, mənzərə, tematik və s. janrlarda büruzə verir.

S. Mirzəzadənin sayca çox olmayan təbiət mənzərələrində çox zaman yalnız bir ağac təsvir olunur ki, o da kompozisiyanı başdan-başa əhatə edir. Rəssamın "Baharda" adlı başqa bir tablosu (2005) bu qəbildəndir. Açıq yaşıl və ağ rəng çalarlarının üstün olduğu tablonun mərkəzində iri gövdəli ağac təsvir edilib. Lakin bu, ilk baxışda o qədər də nəzərə çarpmır. Məsələ burasındadır ki, S.Mirzəzadə kiçik rəng yaxmalarından məharətlə və bol-bol istifadə edir. Rəssam yorulmadan hər bir kiçik yaxmanı ayrı-ayrılıqda kompozisiyanın lazım olan hissəsinə "qoyur". Bu texnika istər-istəməz S.Bəhlulzadənin bədii üslubunu xatırladır. Həqiqətən də S.Mirzəzadənin bəzi tabloları rəng həllinə görə S.Bəhlulzadənin yaradıcılıq manerasına yaxındır. Sözü gedən "Baharda" əsəri də belələrindən sayıla bilər. Rəssam ağacın iri, qara gövdəsini kiçik, yaşıl rəng yaxmaları ilə örtərək onu sanki xəyala bənzətmişdir. Bu kiçik, ahəngdar yaşıl yaxmalar tablonu başdan-başa örtərək əsərə əsrarəngiz lirik-romantik aura yaradır. Bunun davamı olaraq rəssam ağacın budaqlarında çoxlu sayda ağ çiçəklər də təsvir etmişdir. Kiçik ölçülü yaşıl yaxmalarla birlikdə bu ağ çiçəklər tablonu sanki yüngülləşdirir, ona nikbinlik, xoş

ovqat bəxş edir. “Baharda” əsərini S.Mirzəzadənin təbiət lövhəsinin əks olunduğu ən uğurlu və rəngarəng əsərlərindən hesab etmək olar.

S.Mirzəzadənin yaradıcılığında dekorativlik bəzən lirik formalarda təcəssüm etdirilir. Adətən belə tablolarda qadın və təbiət təsvirləri kompozisiyanın əsasını təşkil edir. Bu baxımdan rəssamın “Eyvanda” (2008) adlı kompozisiyasını qeyd etmək olar. Əsərdə geniş eyvan, burada dayanmış gənc qadın təsvir olunub. Qadının incə, sanki küləkdən yırğalanan duruşu diqqət çəkir. Onun yanında dairəvi ağ stol vardır; onun üstündəki güldana ağ güllər qoyulmuşdur. Qadın romantik tərzdə güllərə tamaşa edir. Arxa planda yaşıl ağaclar birləşərək bütöv bir “yaşıl hasar“ əmələ gətimişlər. Bu “hasar”ın arxasından kiçik ağ buludlar uçuşan mavi səma görünür. Tabloda lirik məzmun həm də rənglərin dili ilə açılır. Ümumiyyətlə, S.Mirzəzadə romantik əhvali-ruhiyyəni rənglərin dili ilə əks etdirməyi xoşlayır ki, bu da bəzən əsərlərin adlarında (misal üçün, “Çəhrayı yuxu”) öz əksini tapır. “Eyvanda” tablosunda rəng həlli olduqca zərif təsir bağışlayır. Müəllif əsasən ağ və açıq rənglərdən istifadə etmişdir. Müəyyən mənada əsəri (eləcə də müəllifin bəzi başqa əsərlərini) XIX əsrin sonlarında Avropa incəsənətində mövcud olmuş sentimentalizm nümunələri ilə müqayisə etmək olar. Əsərdə rəssamın çox sevdiyi dekorativ bəzək elementlərinə də yer verilmişdir. Burada təsvir olunmuş parçalı yay stulu belə bəzəklərlə örtülmüşdür.

Assosiativ dəst-xətt S.Mirzəzadənin yaradıcılığında, şübhəsiz ki, müəyyən çəkiyə malikdir. Bununla delə, o, rəssamın lirik-romantik xarakterli tabloları ilə müqayisədə, zənnimizcə, daha məhdud imkanlara malikdir. Rəssam dekorativ məzmuna bəzi hallarda assosiativ düşüncənin məhsulu olan ştrixlər əlavə edir. Lakin sırf lirik-romantik kompozisiyalarda belə ştrixlərə, demək olar ki, rast gəlinmir. Lirik-romantik mahiyyətin güclü ifadə olunduğu əsərlərdən biri də “Mavi fonda sevgililər” (2002) kompozisiyasıdır. Əsər bütovlükdə göz oxşayan “rəng oyunu”ndan ibarətdir (biz bu ifadəni müsbət mənada işlədirik). Adından göründüyü kimi, kompozisiya mavi fona malikdir. Bu mavi fon üzərində ağ-mavi çalarlar, kiçik yaxmalar, cüzi miqdarda qırmızı-sarı zolaqlar nəzərə çarpır. Bu rəng ayrıntıları kompozisiyanı estetik baxımdan daha mükəmməl göstərməklə yanaşı, ona həm də dinamika, hərəkət, ruh verir. S.Mirzəzadənin bu tipli başqa əsərləri də vardır. Lakin hər bir belə əsər öz rəng fonuna malikdir. Bu məqsədlə rəssam daha çox şux, gözə xoş gələn rənglərdən – çəhrayı, bənövşəyi, sarı, açıq-yaşıl və s-dən məharətlə yararlanır.

**Nəticədə** Əməkdar rəssam S.Mirzəzadənin yaradıcılığı əhatəli kontekstdə nəzərdən keçirilmiş, hərtərəfli təhlil edilmiş, aşağıdakı əsas nəticələrə gəlinmişdir:

- Müasir Azərbaycan təsviri sənətinin formalaşmasında və inkişaf etməsində digər tanınmış fırça ustaları ilə yanaşı, Əməkdar rəssam, professor S.Mirzəzadənin də özünəməxsus rolu və yeri olmuşdur;
- Rəssamın yaradıcılığının erkən dövründə monumental sənət mühüm yer tutur. Ötən əsrin 70-80-ci illərində Azərbaycan monumental rəngkarlığının inkişafında S.Mirzəzadənin də payı vardır;
- S.Mirzəzadə sənətdə öz üslubunu formalaşdırmış rəssamlardan biridir. Onun bədii üslubunun əsasında lirik məzmun, dekorativ təsvir metodu vasitəsilə aşkarlanan simvolika dayanır;
- S.Mirzəzadə dekorativ təsvir metodu ilə yanaşı, hissi-assosiativ üslubda çalışan sənətkardır. Bu üslub onun yaradıcılığında bir növ eksperiment xarakteri daşıyır və dekorativ üslubdan fərqli olaraq hələ sonadək formalaşmayıb. Rəssam bu sahədəki orijinal yaradıcılıq axtarışlarını davam etdirir;
- Rəssamın yaradıcılığında qadın mövzusu geniş təmsil olunmuşdur. O, qadın mövzusuna həm lirik-dekorativ, həm də hissi-assosiativ müstəvidə yanaşır. Qadın təbiətinin, psixologiyasının, xarakterinin, zahiri və daxili gözəlliyinin əksi bu mövzunun əsasını təşkil edir;
- Müəllifin yaradıcılığında seriyalar da müəyyən rol oynayır. O, əsas etibarilə iki seriya yaratmışdır ki, bunlar da "Adəm və Həvva" və "Ulduz bürcü" seriyalarından ibarətdir. Eyni zamanda onun yaratdığı bir çox əsərlər kompozisiya və kolorit etibarilə bu seriyalarda təmsil olunan əsərlərlə oxşar cizgilərə malikdir;
- S.Mirzəzadə lirik-dekorativ aspektə istinad edən müəyyən sənətkarlıq çevrəsi daxilində yaradıcılıqla məşğuldur və bu çevrədən çox az hallarda kənara çıxır. Ona görə də rəssamın əsərləri arasında həm ideya və məzmun, həm də kompozisiya və kolorit baxımından müəyyən oxşarlıq (bəzənsə hətta təkrarçılıq) var. Rəssamın eyni süjetə dəfələrlə müraciət etməsini, eyni kompozisiyanı müxtəlif variantlarda (rəngkarlıq və qrafika variantlarında) işləməsini, nəhayət eyni adı müxtəlif əsərlərə qoymasını bununla izah etmək olar;
- Lakin yuxarıda qeyd olunan bu cəhət S.Mirzəzadənin bir sənətkar kimi inkişaf etməsinə mane olmur. Öz sevimli mövzuları, dünyagörüşü çərçivəsində rəssam daima yeniliyə can atır, yeni xüsusiyyətlər düşünüb tapmağa, yaradıcılığında əks etdirməyə çalışır. Onun milli semantika

ruhunda işlədiyi "Qobustan", həmçinin "Mənzərə" (müxtəlif variantlarda), "Sarı gəlin" və s. tablolarda bu cəhəti aydın görmək mümkündür.

**Dissertasiyanın əsas məzmunu müəlllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında qadın mövzusu // İncəsənət və mədəniyyət problemləri, № 1 (59), AMEA MİI, Bakı, 2017, s. 115-123.
2. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında simvolika // ADMİU-nun Elmi Əsərləri, Bakı, 2017, s. 200-209.
3. XX əsrin 70-80-ci illəri rəssam Sirus Mirzəzadənin yaradıcılığının erkən mərhələsi kimi // ADMİU, Mədəniyyət dünyası, XXXIV buraxılış, Bakı, 2017, s. 176-183.
4. Монументальное и станковое искусство в творчестве Сируса Мирзазаде // «Поиск» - Международный научный журнал – приложение Республики Казахстан, № 4, 2017, с. 45-51.
5. Əməkdar rəssam Sirus Mirzəzadənin monumental yaradıcılığı (ötən əsrin 70-ci illər nümunələri əsasında) // Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransının materialları, Bakı, BDU, 2017, s. 275-276.
6. Assosiativ düşüncənin kompozisiya və obrazlarda təcəssümü (Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında) // İncəsənət və mədəniyyət problemləri, № 2 (64), AMEA MİI, Bakı, 2018, s. 57-65.
7. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında "Adəm və Həvva" seriyası // Sənət Akademiyası (elmi-nəzəri jurnal), BXA, 2018, № 5. (çapdadır).
8. Символика и лирические мотивы в творчестве азербайджанского художника Сируза Мирзазаде // Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века (Материалы конференции). Пятигорск, 2018 (çapdadır).

**Naiba Huseyn gizi Valiyeva**

## Features of creativity of the Honored artist Sirus Mirzazadeh


## S U M M A R Y

The thesis consists of an introduction, three chapters, seven sections, conclusion, a list of used literature and an album.

In the introduction, the urgency, purpose and tasks of the research, the degree of the study of the problem is determined, the methodology, the scientific novelty and practical significance of the dissertation is defined, and information on the scope and approbation of the research is given.

**Chapter I - Creative searches in the early period of activities of Sirus Mirzazadeh** - consists of two sections, where the early period of the artist's work is explored. It is emphasized that for the early period of creativity of S. Mirzazadeh is more characteristic of monumental painting. Obelisks, decorative panels created by him in co-authorship, still decorate the city. Simultaneously illuminated and easel works created by the artist in the early period of creativity. These are mainly thematic compositions, as well as works devoted to the theme of labor, youth, sport, and international politics.

**Chapter II – The representation of decorative method in Sirus Mirzazadeh**'s creativity also consists of two sections. In the first section we are talking about decorative forms of expression of lyrical symbols. It is known, that in S. Mirzazadeh's creativity great importance has the lyrical symbolism, manifested in many of his paintings. Ornamentality, patterned elements are typical motifs for most of the artist's paintings. In the section these features, inherent in the artist's style are covered in detail. The second section talks about the theme of women in the artist's creative work. It is stated that the female theme is widely represented in his creativity. Features of the transfer of female images are the basis for the research of this section.

**Chapter III - Manifestation of symbolic-associative images in the artist's creativity** consists of three sections. The subject of the research of the first section is the reflection of associative thinking in compositions and images. This topic is continued in the second section, referred to the series "Adam and Eve", which the artist worked at for many years. He is still working on this series, creating new subjects, both in decorative and in associative forms. Curiously, often in the image of Adam, the artist depicts himself, which allows us to evaluate these works as the self-portrait. In the last section investigated the synthesis of associative and decorative forms in the artist's creativity.

**In conclusion**, the results of the study are summarized.

**Наиба Гусейн гызы Велиева**

## Творчество Заслуженного художника Сируза Мирзазаде

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, семи разделов, заключения, библиографии и альбома.

**Во введении** обоснованы актуальность, цель и задачи исследования, степень изученности проблемы, определены методология, научная новизна и практическая значимость диссертации, дана информация об объеме и апробации исследования.

**I – Глава - Творческие поиски в ранний период деятельности Сируза Мирзазаде** – состоит из двух разделов, где исследуется ранний период творчества художника. Подчеркивается, что для раннего периода творчества С.Мирзазаде больше характерна монументальная живопись. Обелиски, декоративные панно, созданные им в соавторстве, до сих пор украшают город. Одновременно освещаются и станковые произведения, созданные художником в ранний период творчества. Это в основном тематические композиции, а также работы, посвященные теме труда, молодежи, спорта, международной политики.

**II – Глава – Декоративный метод изображения в творчестве Сируза Мирзазаде** – также состоит из двух разделов. В первом разделе речь идет о декоративных формах выражения лирической символики. Известно, что в творчестве С.Мирзазаде большое значение имеет лирическая символика, проявляющаяся во многих его картинах. Декоративность, узорчатые элементы являются характерными мотивами для большинства полотен художника. В разделе эти особенности, присущие стилю художника, подробно освещаются. Во втором разделе говорится о теме женщины в произведениях художника. Отмечается, что женская тема широко представлена в его творчестве. Особенности решения женских образов являются основной темой данного раздела.

**III – Глава - Проявление символико-ассоциативных образов в творчестве художника** – состоит из трех разделов. Предметом исследования первого раздела является отражение ассоциативного мышления в композиции и образах. Эта тема получает свое продолжение во втором разделе, где говорится о серии «Адам и Ева», над которой художник работал много лет. Он по сей день работает над этой серией, создает новые сюжеты, причем как в декоративных, так и в ассоциативных формах. Любопытно, что зачастую в образе Адама художник изображает себя, что позволяет оценить эти работы как автопортрет. В последнем разделе исследуется синтез ассоциативных и декоративных форм в творчестве художника.

**В заключении** подводятся итоги исследования.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА**

***На правах рукописи***

**НАИБА ГУСЕЙН гызы ВЕЛИЕВА**

# ТВОРЧЕСТВО ЗАСЛУЖЕННОГО ХУДОЖНИКА СИРУЗА МИРЗАЗАДЕ

**Специальность: 6215.01 – Изобразительное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии в области искусствоведения**

**Баку - 2018**